## *18 iyun İnsan Hüquqları Günüdür*

# “İnsan hüquqları aylığı” uğurla başa çatmışdır

**18 iyun tarixi Azərbaycanda İnsan hüquqları günüdür. Ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il tarixli müvafiq Sərəncamına əsasən 18 iyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi təsis edilmiş və hər il respublikamızda geniş şəkildə qeyd olunur. Azərbaycan dünyada Milli İnsan hüquqları gününü qeyd edən yeganə ölkədir.**

Ümummilli lider Heydər Əliyevin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq olunan İnsan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramının ölkəmizdə insan hüquqlarının müdafiəsi baxımından əhəmiyyəti nəzərə alınaraq, məhz 18 iyun tarixi İnsan hüquqları günü kimi təsis edilmişdir. Elə həmin Dövlət Proqramında insan hüquqları üzrə səlahiyyətli Müvəkkil təsisatının yaradılması da nəzərdə tutulmuşdur.

İnsan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə 2001-ci il 28 dekabr tarixdə “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanununun qəbul edilməsi, vətəndaşların pozulmuş hüquqlarının məhkəmədənkənar yolla bərpasında yeni mexanizmin və ölkə modelinin formalaşmasına imkan verdi.

Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ulu öndər Heydər Əliyevin ərsəyə gətirdiyi inkişaf modelinin uğurla davam etdirilməsi nəticəsində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquq dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, o cümlədən insan hüquqları sahəsində islahatlar, yeniliklər və nailiyyətlər əldə olunmuş, Azərbaycan bir çox göstəricilərə görə sürətlə inkişaf edən ölkəyə çevrilmişdir.

Eyni zamanda, Heydər Əliyev Fondunun həyata keçirdiyi mühüm əhəmiyyətli layihələr ölkəmizdə insan hüquqlarının səmərəli müdafiəsinə, uşaqların, xüsusi qayğıya ehtiyacı olan insanların rifah halının yaxşılaşdırılmasına böyük töhfələr verir. Həmçinin, Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 28 May - Respublika Günü münasibətilə elan olunan 4-cü dəfə növbəti amnistiya aktının qəbul edilməsi də çox mühüm bir tarixi hadisədir.

Azərbaycan Ombudsmanı da fəaliyyəti dövründə insan hüquqları sahəsində bir çox innovativ təşəbbüslər irəli sürmüş və həmin təşəbbüslər uğurla həyata keçirilmişdir.

İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə ənənəvi olaraq hər il “İnsan Hüquqları Günü” münasibətilə 18 may - 18 iyun tarixlərində respublikamızda “İnsan hüquqları aylığı” keçirilir. Hər il olduğu kimi, bu ildə aylıq çərçivəsində Müvəkkil tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, eləcə də, vətəndaş cəmiyyəti üzvlərinə, QHT və KİV-lərə, icmalara, ümumilikdə isə hər kəsə bu ərəfədə tədbirlərin həyata keçirilməsi, insan hüquqlarına diqqətin bir qədər də artırılması, bu hüquqların təmini və təbliği məqsədini daşıyan müraciətlər edilir. Eyni zamanda aylıqla bağlı əhalini məlumatlandırmaq üçün iki baner hazırlanaraq paytaxtın mərkəzi küçələrində asılmışdır.

Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər qurumlar tərəfindən hər bir təşkilat öz fəaliyyət istiqamətinə uyğun bu əlamətdar gün ərəfəsində ölkəmizdə elan olunmuş “İnsan hüquqları aylığı” ilə bağlı görülmüş işlər barədə arayış hazırlayaraq, aylığın yekununda Ombudsmana göndərilmişdir.

Tarixən ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı gözəl diyar kimi tanınmış Azərbaycanda ölkə başçısının müvafiq Sərəncamı ilə bu ilin “Multikulturalizm ili” elan edilməsi nəzərə alınaraq Aylıq çərçivəsində Ombudsman Aparatı və Regional Mərkəzləri tərəfindən “Multikulturalizm və insan hüquqları” ilə bağlı tədbirlər keçirilmişdir.

Hüquq-mühafizə orqanları, nazirliklər, komitələr tərəfindən aylıq çərçivəsində həyata keçirilən tədbirlər demək olar ki, əhalinin bütün qruplarını əhatə etmiş və onların fəal iştirakları ilə fərqlənmişdir. Ümumtəhsil məktəblərində, orta ixtisas və ali təhsili müəssisələrində, uşaq evləri və internat müəssisələrində, icmalarda, müxtəlif dövlət qurumlarının, Silahlı Qüvvələrin Elmi-Tədris Mərkəzlərində, hüquq mühafizə orqanlarının Akademiyalarında, hərbi hissələrdə, cəzaçəkmə müəssisələrində insan hüquqlarına dair seminar və treninqlər təşkil olunmuş, dövlət qurumlarının mətbu orqanları olan qəzet və jurnallarında insan hüquqlarını təbliğ edən məqalələr və yazılar dərc olunmuşdur.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bölgə prokurorları işçilərinin iştirakı ilə “İbtidai araşdırma məlumatlarının yayılması və aşkarlanması: İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ və milli qanunvericiliyin tələbləri” mövzusunda seminar-məşğələ keçirilmiş, prokurorluq orqanlarında ilk dəfə qulluğa qəbul edilən namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında keçiriləcək icbari təlimin dərs cədvəlində “İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsində azadlıq hüququnun təmin olunması standartları”, “İnsanların sülh şəraitində yaşamaq hüququ”, “İnsan hüquqları üzrə Avropa Məhkəməsinin işgəncələrin qadağan olunmasına dair mövqelərinin milli təcrübədə nəzərə alınması”, “Həbs qətimkan tədbiri (fərdin azadlıq hüququna müdaxilənin hüdudları)”, “Cinayət prosesində müdafiə tərəfinin hüquqlarının təmin edilməsi”, “Azadlıq və toxunulmazlıq hüququnun təmin olunması üzrə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin standartlarının milli təcrübədə nəzərə alınması” və digər insan hüquqları ilə bağlı mövzulara xeyli yer ayrılmışdır.

Daxili İşlər Nazirliyi tərəfindən insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində maarifləndirmə işinin gücləndirilməsi, tutulmuş və həbs edilmiş şəxslərlə rəftarın milli qanunvericiliyin və beynəlxalq sənədlərin tələbləri səviyyəsində təşkili, polisin müvəqqəti saxlama yerlərində saxlama şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər həyata keçirilmiş, uşaqlar arasında dilənçilik hallarının, onların belə əməllərə təhrik olunmasının profilaktikası və pedaqoji mühitdən yayınan məktəblilərin təhsilə qaytarılması məqsədilə keçirilmiş tədbirlər nəticəsində təhsil prosesindən yayınan azyaşlılar müəyyən edilərək məktəblərə qaytarılmışdır.

Bundan əlavə Daxili İşlər Nazirliyi və onun yerli polis orqanları tərəfindən “Azərbaycan Respublikasında insan hüquqlarının formalaşması və inkişaf tarixi”, “Uşaq hüquqları və cəmiyyət”, “Uşaq hüquqlarının müdafiəsində polisin rolu”, “Zərərli vərdişlərə yox deyək”, “Valideyn və uşaq münasibətlərində qanunvericilik”, “Narkotiklər haqqında nə bilirik?”, “Narkotik, yoxsa həyat” mövzularında əhalinin müxtəlif qrupları arasında maarifləndirmə və izahat işləri aparılmışdır.

Müdafiə Nazirliyi tərəfindən Silahlı Qüvvələrin bütün birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində insan hüquqlarının və azadlıqlarının mahiyyətindən, onların pozulması və qarşısının alınması yollarından bəhs edən mövzularda dəyirmi masalar, konfranslar, əhali ilə görüşlər, maarifləndirici seminarlar və digər tədbirlər təşkil olunmuşdur.

İnsan hüquqlarını təbliğ edən mövzularda keçirilən tədbirlərdə iştirakçılara maraqlandıran suallar mütəxəssislər, ekspertlər, hüquqşünaslar və b. tərəfindən cavablandırılmışdır.

Vergilər Nazirliyi tərəfindən Aylıq çərçivəsində vergi ödəyicilərinin iştirakı ilə sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi mövzularında çoxsaylı tədbirlər, görüşlər keçirilmişdir. Eyni zamanda, 2016-cı il üzrə tədris-mövzu proqramına “Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri” barədə mövzu daxil edilmiş və nazirliyin Tədris Mərkəzində qeyd edilən mövzuda təlim təşkil edilmişdir.

Fövqəlade Hallar Nazirliyinin tabeliyində olan qurumlarda bir sıra tədbirlər həyata keçirilmiş, həmin tədbirlərdə ölkəmizdə insan hüquqları sahəsində aparılan islahatlar, fövqəlade halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı insanların müdafiəsinin təmin olunmasında nazirliyin fəaliyyəti və rolu mövzularında müzakirələr aparılmış, təbii və texnogen xarakterli fövqəlade hallar zamanı insan hüquqlarının qorunmasının vacibliyi qeyd edilmişdir. Yeri gəlmişkən, Nazirlik tərəfindən uşaq bağçalarında və orta məktəblərdə uşaqlara fövqəlade hallar və təbii fəlakətlər zamanı bilməsi tələb olunan qaydalar barədə təlimlərin keçirilməsi ilə uşaqlara erkən yaşlarından zəruri biliklər aşılanır.

Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan respublikanın mədəniyyət mərkəzləri, onların filialları və digər klub müəssisələrində mütəmadi olaraq hüquq mühafizə orqanlarının nümayəndələrinin, alimlərin, ictimai xadimlərin iştirakı ilə insan hüquqları mövzusuna həsr edilmiş “dəyirmi masa”lar, seminarlar və s. tədbirlər keçirilmişdir.

Nəqliyyat Nazirliyi torpaqlarımızın işğalı nəticəsində nəqliyyat-yol infrastrukturu obyektlərinə dəymiş ziyan barədə ümumiləşdirilmiş məlumatın beynəlxalq ictimaiyyətə çatdırılması və işğalçı Ermənistan tərəfindən həmin ziyanın ödənilməsi məqsədilə beynəlxalq müstəvidə işin təşkili istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən Bakı Dövlət Universitetində tələbə və müəllim heyətinin iştirakı ilə “İnformasiya təhlükəsizliyi və insan hüquqları” mövzusunda tədbir keçirilmiş, iştirakçılara milli və beynəlxalq qanunvericilik aktlarında informasiya təhlükəsizliyi ilə bağlı məsələlər barədə məlumat verilmiş və müzakirələr aparılmışdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin struktur bölmələrində “Heydər Əliyev insan hüquqlarının təminatçısı kimi” mövzusunda mühazirələr oxunmuş, eləcə də hüquq hazırlığı çərçivəsində “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”nın və onun Fakültativ Protokolundan, həmçinin “Vətəndaşların müraciətləri haqqında” Qanunun tətbiqi barədə ölkə Prezidentinin müvafiq Fərmanından irəli gələn məsələlər müzakirə olunmuş, vətəndaşların müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi haqda əməkdaşlara geniş məlumat verilmiş, eyni zamanda insan hüquqları sahəsində qəbul olunmuş digər beynəlxalq sənədlərin öyrənilməsi təşkil edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən “Tolerant və multikultural cəmiyyətdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları”, Qobustan rayonunda “Vətəndaşsızlıq vəziyyətində olan şəxslərin müəyyənləşdirilməsi və leqallaşdırılması—insan hüquq və azadlıqlarının genişləndirilməsi kontekstində”, Yevlax şəhərində “Miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri barədə məlumatlandırılmasının qanunsuz miqrasiyanın qarşısının alınmasında əhəmiyyəti” və Lənkəran şəhərində “Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir” mövzularında tədbirlər keçirilmiş və kütləvi informasiya vasitələrində işıqlandırılması təmin edilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Aylıq çərçivəsində paytaxtda və regionlarda “İnsan Hüquqları”, “Uşaqların təhsildən yayınması və erkən nikahların qarşısının alınması”, “Məişət zorakılığı və qadın hüquqları”, “Güneş uşaqları”, “Mənim hüquqlarım məni qoruyur” və digər mövzularda maarifləndirmə işləri aparılmış, “İstedadlı uşaqlar festivalı—2016” adlı tədbir, habelə uşaqların ekskursiyaları və idman yarışları təşkil edilmişdir.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılması zamanı müəyyən edilmiş qaydalara düzgün əməl edilməsi üçün komitənin əməkdaşları arasında geniş təbliğat işi aparılmış və bu qaydaların pozulduğu hallarda qanunvericiliyə uyğun olaraq ciddi tədbirlərin görüləcəyi haqqında məlumat verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunda “İnsan hüquqlarının müdafiəsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi” mövzusunda konfrans keçirilmişdir.

Milli Televiziya və Radio Şurası tərəfindən teleradio yayımçılarının bir sıra proqram və verilişlərində insan hüquqları problemi gündəmə gətirilməklə zəruri izahat və maarifçilik işi aparılmışdır. Bu məqsədlə vaxtaşırı olaraq görkəmli alim və ziyalıların, millət vəkillərinin, tanınmış hüquqşünas və şərhçilərin çıxışları verilmişdir.

Vəkillər Kollegiyasının üzvləri “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunun tələblərinə uyğun olaraq istintaq və məhkəmə orqanlarında müqavilə və ya dövlət büdcəsinin vəsaiti hesabına insanlara, eyni zamanda, mülki işlər üzrə vəkilin yardımını ödəmək üçün kifayət qədər vəsaiti olmayan ayrı-ayrı şəxslərə Azərbaycan Respublikasının Ali Məhkəməsində pulsuz hüquqi yardım göstərmişlər. Onlar yuxarıda qeyd olunan fəaliyyətlərini yerinə yetirərkən hüquqi yardım göstərdikləri vətəndaşlara “Avropa İnsan Hüquqları Konvensiyası”nın müddəalarının izah edilməsinə geniş yer vermişlər.

Xüsusilə vurğulanmalıdır ki, ölkə Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının icrası ilə bağlı məsləhətləşmələrin keçirilməsi məqsədilə Müvəkkil tərəfindən 30-a yaxın şəhər və rayonda ictimai dinləmələr keçirmiş və bu proses davam etdirilir. Həmin səfər zamanı Müvəkkil hərbi hissələrə, rayon (şəhər) polis şöbələrinin müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanasına, ruhi xəstəxanalara başçəkmə həyata keçirmiş, sosial obyektlərə, o cümlədən mərkəzi xəstəxanalara, diaqnostika mərkəzlərinə, perinatal mərkəzlərə, məktəblərə, uşaq kitabxanalarına gedərək orada göstərilən xidmət səviyyəsi ilə yaxından tanış olmuş və fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr vermişdir.

Milli Fəaliyyət Proqramın təbliği və tətbiqi vəziyyətinin monitorinqi məqsədilə həyata keçirilən bu ictimai dinləmələr əhalinin hüquqi maarifləndirilməsinə, ictimai iştirakçılığın və vətəndaş fəallığının artmasına, hər kəsin iştirak hüququnun təmin edilməsinə, idarəetmənin demokratikləşməsinə və daha da təkmilləşdirilməsinə xidmət edir.

Ümumilikdə Aylıq çərçivəsində dövlət qurumları, şəhər və rayon icra hakimiyyətləri tərəfindən müxtəlif mövzularda çoxsaylı tədbirlər keçirilmiş, onlarla sərgilər və inşa müsabiqələri təşkil edilmişdir ki, bu da minlərlə insanı əhatə etmişdir. Bu statistik rəqəmlər bir daha bir ənənə olaraq hər il belə Aylığın keçirilməsinin mühüm əhəmiyyət daşıdığını sübut edir.

Aylığın nəticələrini ümumiləşdirdikdə belə bir nəticəyə gəlmək olar ki, Aylıqların və müntəzəm monitorinqlərin keçirilməsinin əhəmiyyəti də insanların iştirakçılığı, kütləviliyi, qərar qəbul edilməsində vətəndaş fəallığı, bütün sahələrdə davamlı inkişaf proseslərinə qatılması, təşəbbüskarlıqları, bir sözlə Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının səmərəli həyata keçirilməsinə və demokratik idarəetmənin təkmilləşdirilməsinə xidmət edir.

Müvəkkilin “İnsan Hüquqları Aylığının” keçirilməsi təşəbbüsü müvafiq dövlət qurumları ilə əməkdaşlıqda bu ildə uğurla başa çatmış və bu proses gələcəkdə də müsbət təcrübə kimi davam etdiriləcəkdir.

**Faiq AĞAYEV,**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının şöbə müdiri.**